**UOT 004:330.47:330.88**

***Əliquliyev R.M.[1], Mahmudov R.Ş.[2]***
[1,2]AMEA İnformasiya Texnologiyaları İnstitutu, Bakı, Azərbaycan
[1]secretary@iit.ab.az,[2]rasimmahmudov@gmail.com

# İNFORMASİYA CƏMİYYƏTİNİN FORMALAŞMASININ MULTİDİSTİPLİNAR ELMİ-NƏZƏRİ PROBLEMLƏRİ

*Məqalədə informasiya cəmiyyətinin formalaşmasının multidistiplinar problemləri araşdırılır və təsnif edilir. İnformasiya cəmiyyəti nəzəriyyəsi ilə bağlı müxtəlif baxışlar, yanaşmalar, konsepsiyalar analiz olunur. Beynəlxalq təşkilatların informasiya cəmiyyəti quruculuğu ilə bağlı fəaliyyəti, çağırışları şərh edilir. İnformasiya cəmiyyətinin mutidistiplinar problemləri ilə məşğul olan dünyanın nüfuzlu elmi tədqiqat mərkəzlərinin və jurnallarının fəaliyyət istiqamətləri tədqiq olunur.*

***Açar sözlər:*** *informasiya cəmiyyəti, postsənaye cəmiyyəti, multidistiplinar yanaşma, informasiya siyasəti, informasiya istehsalı, innovativ fəaliyyət, intellektual mülkiyyət.*

## Giriş

Sivilizasiyanın inkişafının müasir mərhələsi olan informasiya cəmiyyətinin formalaşmasının və inkişafının əsasında informasiya-kommunikasiya texnologiyaları (İKT) dayanır. Ona görə də informasiya cəmiyyətinin xüsusiyyətlərini və inkişaf tendensiyalarını İKT müəyyən edir. Bu gün İKT hərtərəfli və dinamik inkişaf prosesindədir. İKT sahəsində əldə edilən nailiyyətlərin hamısı praktiki əhəmiyyətə malikdir və bu nailiyyətlər cəmiyyətin bütün sahələrinə çevik şəkildə tətbiq edir. Buna görə də hazırda cəmiyyət, insan həyatı kəskin və bir sıra hallarda gözlənilməz və proqnozlaşdırılması mümkün olmayan transformasiyalar dövrünü yaşayır. Belə ki, ictimai-siyasi, sosial-iqtisadi, mədəni sahələrdə bir-birləri ilə qarşılıqlı əlaqədə olan, bir-birlərinə qarşılıqlı təsir göstərən, zəncirvari bağlılığa malik dərin dəyişikliklər prosesi müşahidə olunur.

İnformasiya cəmiyyəti insan fəaliyyətinin bütün sahələrində baş verən kompleks dəyişikliklərin məhsulu olduğu kimi, onun elmi problemlərinin araşdırılması da multidistiplinar yanaşma tələb edir. Yəni informasiya cəmiyyətinin elmi problemləri texnologiya, iqtisadiyyat, hüquq, politologiya, fəlsəfə, sosiologiya, psixologiya, pedoqogika, kulturologiya, linqvistika və s. sahələr üzrə əlaqələndirilmiş şəkildə tədqiqatların aparılmasını tələb edir.

İnformasiya cəmiyyətinin elmi problemlərinin araşdırılmasına ötən əsrin 70-ci illərinin əvvəlindən başlanmışdır. Ötən müddət ərzində informasiya cəmiyyəti ilə bağlı bir sıra elmi konsepsiyalar, nəzəriyyələr, yanaşmalar irəli sürülmüşdür. Həmin tədqiqatlarda da məhz informasiya cəmiyyəti müxtəlif aspektlərdən şərh olunur.

Bir sıra beynəlxalq və regional təşkilatlar, o cümlədən BMT-nin çətiri altında olan qurumlar informasiya cəmiyyəti quruculuğuna dair araşdırmalar apararkən, hesabatlar, tövsiyələr, konsepsiyalar hazırlayarkən multidistiplinar yanaşmadan çıxış edirlər. Həmin təşkilatların bu yanaşması informasiya cəmiyyətinin formalaşmasına və inkişafına dair milli konseptual sənədlərdə də özünü əks etdirir.

Hazırda dünyanın müxtəlif ölkələrində informasiya cəmiyyəti problemlərinin araşdırılması ilə bağlı nüfuzlu elmi tədqiqat mərkəzləri fəaliyyət göstərir. Həmin mərkəzlərdə aparılan müvafiq tədqiqatlar da multidistiplinar xarakter daşıyır, informasiya cəmiyyətinin problemləri ilə bağlı kompleks yanaşma tətbiq edilir. Qeyd edilən elmi mərkəzlərin bir çoxu beynəlxalq əməkdaşlığa üstünlük verirlər və bu istiqamətdə müxtəlif layihələr həyata keçirirlər. Eyni zamanda, informasiya cəmiyyətinin multidissiplinar problemlərinə həsr olunmuş tədqiqinə dair bir sıra yüksək reytinqli elmi jurnallar nəşr olunur.

Müvafiq beynəlxalq və regional təşkilatların, aparıcı elmi mərkəzlərin və jurnalların fəaliyyətinin öyrənilməsi və analizi ölkəmizdə informasiya cəmiyyəti problemləri üzrə tədqiqat aparan müəssisələr və tədqiqatçılar üçün aktuallıq kəsb edir.

## İnformasiya cəmiyyətinə dair elmi-nəzəri baxışlar

Hazırda informasiya cəmiyyətini xarakterizə edən çoxlu sayda konsepsiya mövcuddur. Müvafiq konsepsiyaların müəllifləri informasiya cəmiyyətinin ən müxtəlif aspektlərini araşdırırlar. Bir sıra müəlliflər informasiya cəmiyyətini multidistiplinar yanaşma əsasında, yəni müxtəlif elmi aspektlərdən tədqiq edirlər, digərləri isə onun ayrı-ayrı aspektlərinə diqqət yetirirlər. Həmin fundamental tədqiqatlarda İKT-nin gətirdiyi yeni reallıqların ətraflı elmi-nəzəri analizi verilir.

Ötən əsrin 70-ci illərində, demək olar ki, eyni vaxtda yaranan iki ideologiyanın – “postsənaye cəmiyyəti” və “informasiya cəmiyyəti” ideologiyalarının konvergensiyası baş verdi. Bundan sonra “postsənaye cəmiyyəti” və “informasiya cəmiyyəti” ideologiyaları sinonim kimi işlənməyə başladı. Hamı tərəfindən birmənalı şəkildə qəbul olunur ki, “informasiya cəmiyyəti” termini elmi terminologiyaya Tokio Texnologiya İnstitutunun professoru Y.Xayaşı tərəfindən daxil edilib. Sonradan elmi ədəbiyyatda bu termin K.Katoyamı, T.Umesso, F.Maxlup və başqaları tərəfindən istifadə edilməyə başladı [3].

Yaponiya hökumətinə təqdim edilən Sənaye Strukturu Şurasının “Yapon cəmiyyətinin informasiyalaşdırılmasına siyasi yardımın konturları” (1969); Kompüterlərin istifadəsinin işlənməsi İnstitutunun “İnformasiya cəmiyyətinin planı” (1971); İqtisadi Planlaşdırma Agentliyinin “Yaponiya informasiya cəmiyyəti: mövzu və yanaşmalar” adlı hesabatlarında gələcək informasiya cəmiyyətinə dair ümumi baxışlar formalaşdırılmışdır: “kompüterləşmənin inkişafı insanlara etibarlı informasiya mənbələrinə çıxış imkanı verəcək və istehsalın yüksək səviyyədə avtomatlaşdırılması təmin etməklə onları rutin işlərdən azad edəcək” [4]. Həmin sənədlərdə informasiya cəmiyyətinin ümumi xarakteristikası aşağıdakı kimi verilmişdir:

- keyfiyyətli informasiya mənbələrinin geniş inkişafı və hər kəsin onlara rahat çıxışı;
- insanları rutin işlərdən (o cümlədən onların bir çox intellektual növlərindən) azad edən avtomatlaşdırmanın və robotlaşdırmanın yüksək səviyyəsi;
- informasiyanın məhsulun dəyərində rolunun artması.

Bir çoxlarının fikrincə, müvafiq nəzəri baxışların əsasında görkəmli Amerika sosioloqu Daniel Bellin (1919-2011) “Postsənaye cəmiyyəti” konsepsiyası dayanır [5]. Bu konsepsiyada müəllif bilik və texnologiyaların inkişafının cəmiyyətin tərəqqisinə təsir göstərdiyini önə çəkirdi. Hesab edirdi ki, postsənaye cəmiyyətində maşın texnologiyasını informatikaya əsaslanan intellektual texnologiyalar əvəz etməyə başlayır, bu cəmiyyətin əsas siyası problemi elmə dövlət dəstəyinin forma və xarakteri ilə bağlıdır, burada artıq əzələ gücü və enerji deyil, informasiya əsas rol oynamağa başlayır. “Postsənaye cəmiyyəti” konsepsiyasının əsas müddəaları aşağıdakılardır:

- *iqtisadi sfera:* sənaye məhsulları istehsalından xidmət istehsalına keçid;
- *məşğulluq sahəsi:* peşəkar mütəxəssislərin və texniklər sinfinin üstünlük təşkil etməsi;
- *əsas xətt:* yeniliklərin mənbəyi kimi nəzəri biliklərin aparıcı rolu;
- *gələcək istiqamətlər:* texnologiyalar və texnoloji qiymətləndirmələr üzərində nəzarət;
- *qərar qəbuletmə prosesi:* yeni intellektual texnologiyaların yaradılması.

D.Bellin 1970-ci illərdə yazdığı əsərlərdə informasiya cəmiyyəti ideyası açıq şəkildə irəli sürülmürdü, lakin o, nəzəri biliklərin sistemləşdirilməsini yeni sosial nizamın baza prinsipi hesab edirdi. Ötən əsrin 80-ci illərində İKT cəmiyyətin inkişafına daha dərindən təsir göstərməyə başlayır və həmin vaxtdan etibarən D.Bell informasiya cəmiyyəti konsepsiyasının tərəfdarına çevrilir. O, bu konsepsiyanı postsənaye cəmiyyəti konsepsiyasının inkişafının yeni mərhələsi hesab etməyə başlayır [6].

Bəzi alimlər isə hesab edirlər ki, informasiya cəmiyyəti ideyasını ilk dəfə görkəmli Amerika alimi, kibernetikanın banisi Norbert Viner (1894-1964) irəli sürüb. O, hələ ötən əsrin 50-ci illərinin əvvəlində yazırdı ki, gələcəkdə insanla maşın, maşınla insan və maşınla maşın arasında informasiya mübadiləsinin inkişafı cəmiyyətdə mühüm rol oynayacaq [7-8].

İnformasiya cəmiyyəti konsepsiyasının müəlliflərindən olan yapon alimi Yonezi Masuda (1905-1995) informasiya cəmiyyətinin əsaslarını aşağıdakı kimi təsvir etmişdir [4]:

- yeni cəmiyyətin əsasını insanın əqli fəaliyyətini əvəz etmək və ya gücləndirmək üçün nəzərdə tutulan kompüter texnologiyası təşkil edəcək;
- yeni telekommunikasiya texnologiyaları vasitəsi ilə yaradılan və yayılan intellektual istehsal iqtisadiyyatın aparıcı sahəsini təşkil etməklə informasiya inqilabı cəmiyyətin yeni istehsal gücünə çevriləcək;
- yeni cəmiyyətdə koqnitiv, sistemləşdirilmiş informasiyanın, texnologiyaların və biliklərin kütləvi istehsalı mümkün olacaq;
- əməkdaşlıq, problemlərin birlikdə həll edilməsi imkanları artacaq;
- intellektual (elmtutumlu) istehsal iqtisadiyyatın aparıcı sahəsinə çevriləcək;
- informasiya cəmiyyətində sosial fəallığın əsas subyekti "azad cəmiyyət" olacaq;
- yeni cəmiyyətin əsas hədəfi "zamanın dəyərini" reallaşdırmaq olacaq.

Amerikalı alim Elvin Toffler (1928) informasiya cəmiyyəti konsepsiyasının inkişafına mühüm töhfələr vermişdir. Onun "Gələcəyin şoku", "Üçüncü dalğa" və "Hakimiyyətin metamorfozları" adlı əsərləri - triologiyası bu konsepsiyaya həsr olunmuşdur. "Gələcəyin şoku" əsərində dəyişikliklərin insanlara və təşkilatlara təsiri məsələlərinə baxılır. "Üçüncü dalğa" əsərində cəmiyyətə təsir edən dəyişikliklərin istiqamətləri təhlil edilir. "Hakimiyyətin metamorfozları" əsəri isə dəyişikliklər dövrünün idarəetmə problemlərinə həsr olur [9-11].

E.Toffler informasiya cəmiyyətində iqtisadiyyatı aşağıdakı kimi xarakterizə edir:

– informasiya və bilik mübadiləsinin rolu artır;
– yeni informasiya texnologiyalarının hesabına müxtəlif çeşidli, lakin kütləvi olmayan məhsulların istehsalı artır;
– ənənəvi istehsal amillərinin - əmək, torpaq, xammal və kapitalın əhəmiyyəti azalır;
– ənənəvi pulların əvəzinə elektron informasiya əsas mübadilə vasitəsinə çevrilir;
– əmtəə və xidmətlər daim standartlarının həcminin artmasını tələb edən sistemlərin tərkib hissələrinə çevriləcək. Bunun nəticəsində həmin standartların qeyd olunduğu informasiya uğrunda müharibələr baş verəcək;
– ağır bürokratik əmək müəssisələri bir layihə ətrafında birləşən çevik, müvəqqəti əmək alyansları ilə əvəz olunacaq;
– təşkilat formalarının sayı və rəngarəngliyi artacaq, onlar arasında informasiya mübadiləsi mürəkkəbləşəcək;
– peşə sahələrində dar ixtisaslaşma prosesi dərinləşəcək, unikal bilik daşıyıcıları olan işçilərin bir-birlərini əvəz etməsi çətinləşəcək;
– təxəyyül və bilikləri əməli fəaliyyətlə birləşdirməyi bacaran mütəxəssis əmək bazarının əsas simasına çevriləcək;
– bir istehsal prosesinin tullantılarının növbəti istehsal prosesi üçün xammala çevrilməsi nəticəsində cəmiyyətdə bolluq yaranacaq, bu, müvafiq monitorinq proseslərinin kompüterləşməsi, elmi və ekoloji biliklərin dərinləşməsi nəticəsində mümkün olacaq;
– sənaye inqilabı nəticəsində bölünmüş istehsalçı və istehlakçı bolluq yaradılması tsiklində yenidən birləşəcək; istehlakçı pulla yanaşı, effektli istehsal prosesi üçün vacib olan bazar və digər iqtisadi əhəmiyyətli informasiyaya malik olacaq. Nə vaxtsa istehlakçı da istehsal prosesini sürətləndirə biləcək.
– bolluq yaratma sistemi həm lokal, həm də qlobal miqyasda mümkün olacaq. Bu proses milli sərhədləri aşaraq bir çox dövlətlərin birgə səyləri nəticəsində mümkün olacaq.

E.Toffler zamanı yeni sivilizasiyanın əsas dəyərlərindən biri sayır. Onun fikrincə, sürətli informasiya axınları və qloballaşma "real zaman iqtisadiyyatının" formalaşmasına gətirib çıxarır. E.Toffler informasiya cəmiyyətinin əsas əlamətləri kimi istehsalın fərdiləşməsini və insanların öz

fəaliyyətlərində fərdiyyəçiliyə üstünlük vermələrini, informasiya mübadiləsinin kəskin artmasını, siyasi sistemlərdə özünüidarəetmənin üstünlük qazanmasını qeyd edir.

Amerika alimi Manuel Kastels (1942) əsərlərində "informasiya cəmiyyəti" anlayışından istifadə etmir [1,12]. Onun fikrincə bütün cəmiyyətlər informasiyadan istifadə edib, ona görə də onların hamısı, əslində, informasiya cəmiyyəti olub. O, yeni cəmiyyəti "şəbəkə cəmiyyəti" adlandırır, informasiya erasını qloballaşma erası kimi xarakterizə edir. Onun baxışlarına görə, zəruri informasiyanın toplanması, analizi və ötürülməsi məhsuldarlığın və hakimiyyətin fundamental mənbələridir. Hesab edir ki, "informasionalizmin" inkişafı şəbəkə cəmiyyətinin və yeni iqtisadiyyatın yaranmasına gətirib çıxarır. M.Kastels "İnformasiya əsri: iqtisadiyyat, cəmiyyət və mədəniyyət" əsərində göstərir ki, informasiya əsrində insanları, təşkilatları və dövlətləri bir-biri ilə birləşdirən şəbəkə əsas rol oynayacaq.

M.Kastels yeni cəmiyyətdə beynəlxalq əmək bölgüsünü belə xarakterizə edir:

- yüksək dəyərli məhsul istehsalçıları (informasiya əməyinə əsaslanan);
- böyük həcmli məhsul istehsalçıları (yüksək əmək məhsuldarlığına əsaslanmayan);
- xammal istehsalçıları (təbii resurslara malik olanlar);
- bol məhsul istehsalçıları (təmin olunmuş əmək resurslarından istifadə edənlər).

M.Kastels şəbəkə müəssisələrinin bu xüsusiyyətlərini göstərir: əhatə dairəsinin genişliyi, interaktivlik, çevik idarəetmə, brendinq və istehlakçıya yönəlmə. Eyni zamanda, qeyd edir ki, cəmiyyətin informasiya əsrinə keçidi təkcə texnologiya və iqtisadiyyatı əhatə etmir: "O, həm də mənəviyyatı, mədəniyyəti, ideyaları, həmçinin cəmiyyətin institusional və siyasi strukturunu əhatə edir. Bu, bütün insan həyatının tamamilə transformasiyaya uğraması deməkdir". M.Kastelin "Şəbəkə cəmiyyəti" konsepsiyası informasiyanın sosial strukturun əsası kimi dərk etməsindən irəli gəlir. Belə ki, müəllif sosial strukturları yeni sosial quruluş qismində gördüyü şəbəkə strukturları kimi təqdim edir. Onun baxışlarına görə, insan həyatının bütün sahələrini əhatə edən operativlik, mobillik və çeviklik sosial strukturun şəbəkə formasına keçidi zəruri edir: iqtisadiyyatda şəbəkə sistemi, interaktiv siyasi sistem, vahid qlobal informasiya şəbəkəsi İnternet.

M.Kastels şəbəkə (informasiya) cəmiyyətinin problemlərini belə xarakterizə edir:

- İnternetin idarə edilməsi ilə bağlı problemlər;
- İnternetin potensialından istifadə ilə bağlı məhdudiyyətlər, rəqəmsal bərabərsizlik;
- informasiyanın işlənməsi qabiliyyətinin inkişafı ilə bağlı problemlər;
- əmək münasibətlərinin transformasiyası ilə bağlı problemlər;
- təbii resursların istismarının intensivliyinin artması ilə bağlı problemlər;
- insanın yaratdığı texnologiyaların onun nəzarətindən çıxması qorxusu.

Fransız sosioloqu Aren Turen (1925) informasiya cəmiyyətini "proqramlaşdırılan cəmiyyət" adlandırırdı. O, bu cəmiyyətin fərqləndirici xüsusiyyətləri kimi, istehsal sahəsində, hakimiyyət və idarəetmə münasibətlərindəki dəyişiklikləri göstərirdi. Hesab edirdi ki, aqrar cəmiyyətdə əsas məşğuliyyət növü ticarət, sənaye cəmiyyətində istehsal, informasiya cəmiyyətində isə kommunikasiyadır [13].

Amerikalı alim Piter Draker (1909-2005) 1995-ci ildə nəşr etdirdiyi "Postkapitalizm cəmiyyəti" kitabı ilə informasiya cəmiyyəti konsepsiyasına mühüm töhfə vermişdir [14]. Bu kitabda Qərb sivilizasiyasının mövcud vəziyyəti və inkişaf perspektivləri ilə bağlı öz fikirlərini ortaya qoymuşdur. O, sənaye təsərrüfatından bilik və informasiyaya əsaslanan iqtisadi sistemə keçidi özəl kapitalist mülkiyyətinin üstünlük təşkil etməsi, müasir insanın yeni dəyərlər sisteminin formalaşması və iqtisadiyyatın və cəmiyyətin qloballaşmasının təsiri ilə milli dövlətçilik ideyasının qlobal cəmiyyət ideyasına transformasiya olunması kimi xarakterizə edirdi. P.Drakerin fikrincə, ənənəvi istehsal amilləri olan torpaq, işçi qüvvəsi və kapital aradan qalxmayıb, sadəcə, ikinci plana keçir. Onun düşüncəsinə görə, zəruri biliklərə malik olmaqla ənənəvi istehsal resurslarını (torpağı, işçi qüvvəsini, kapitalı) asanlıqla əldə etmək olar. O, informasiya cəmiyyətində hakimiyyət və nəzarətin tədricən kapital sahiblərindən bilik və informasiya sahiblərinə, həmin resurslardan effektli istifadə texnologiyalarına malik olanlara keçir.

Amerika iqtisadçısı Frits Maxlup (1902-1983) 1962-ci ildə ABŞ iqtisadiyyatında ilk dəfə olaraq "biliklərin istehsalı və yayılması" sektorunu fərqləndirdi, elmi dövriyyəyə "biliklər iqtisadiyyatı" terminini daxil etdi [15].

Alman sosioloqu Tom Stounerə (1927-1999) görə, informasiya cəmiyyəti bolluq erası, burada hər kəs zadəgan, filosof olacaq [16]. Onun fikrincə, sənaye cəmiyyətinin sonunda insanların ərzaq narahatçılığına son qoyulduğu kimi, kommunikativ cəmiyyətin sonunda maddi ehtiyacların ödənilməsi ilə bağlı narahatçılığı aradan qalxacaq: "Sənaye cəmiyyəti quldarlığı, aclığı, epidemiyaları aradan qaldırdığı kimi, informasiya cəmiyyəti də avtoritarizmi, müharibəni və ədavəti yox edəcək. Tarixdə ilk dəfə olaraq bizim problemləri həlletmə sürətimiz onların yaranma sürətini üstələyəcək". T.Stouner hesab edir ki, informasiyanı da kapital kimi toplamaq və gələcəkdə istifadə üçün saxlamaq olar. Onun baxışlarına görə, informasiya cəmiyyətində milli informasiya resursları ən böyük potensial sərvətə çevriləcək və ona görə də, ilk növbədə, informasiya iqtisadiyyatının inkişafına diqqət ayrılmalıdır.

Rus alimi Vladislav İnozemtsev (1968) hesab edir ki, informasiya texnologiyaları və resursları bizi "postiqtisadi cəmiyyətə" gətirib çıxarır ki, burada da iqtisadi cəhətdən motivasiya olunmuş əmək fəaliyyəti şəxsiyyətin özünüreallaşdırma vasitəsi olan yaradıcılıq fəaliyyəti ilə əvəz olunur [17].

Amerikalı politoloq Zbiqnev Bjezinski (1928) "Texnotron cəmiyyət" konsepsiyasını irəli sürmüşdür [1]. O, "İki əsr arasında. Texnotron əsrində Amerikanın rolu" adlı kitabında informasiya cəmiyyətinin texnotron cəmiyyətə çevriləcəyini düşünür. Hesab edir ki, texnotron cəmiyyət – texnika və elektronikanın, xüsusən, kompüter və kommunikasiyalar sahəsində inkişaf nəticəsində yeni mədəni, psixoloji, sosial və iqtisadi münasibətlərin formalaşmasıdır.

Kanadalı alim Marşall Maklyuen (1911-1979) kütləvi kommunikasiyalar nəzəriyyəsi sahəsində klassiklərdən biri sayılır. O, informasiya texnologiyalarına yeni cəmiyyətin sosial-iqtisadi əsaslarının formalaşmasına təsir göstərən əsas amil kimi dəyər verirdi. M.Maklyuen hesab edirdi ki, telekommunikasiyaların, mass-medianın və kompüterlərin vasitəsilə elektrik enerjisi bütün yer kürəsini qlobal kəndə çevirir. Onun fikrincə, kütləvi kommunikasiyalar müasir cəmiyyətin bir hissəsinə çevrilir, eyni zamanda, onun üzərində müəyyən hakimiyyət əldə edir [18].

Amerikalı sosioloq Herbert Şiller (1919-2000) hesab edirdi ki, informasiya sferasında korporativ kapitalizmin maraqları dominantlıq edir. Onun baxışlarına görə, informasiya proseslərinin və texnologiyalarının inkişafı, ilk növbədə, bötüvlükdə, cəmiyyətin deyil, özəl biznesin maraqlarına xidmət edir. H.Şiller iddia edirdi ki, informasiya texnologiyaları üzərində, hər şeydən əvvəl, kooperativ kapitalın izləri var, istənilən digər maraqlar arxa plandadır [19].

Digər rus alimi Nikita Moiseyevin (1917-2000) informasiya cəmiyyətinə dair baxışları da mühüm əhəmiyyət kəsb edir [20]. Onun fikrincə, bütün insanların informasiyaya sərbəst çıxışı təmin olunmadan informasiya cəmiyyəti – qlobal miqyasda kollektiv intellekt quruculuğundan danışmaq olmaz. O, hesab edirdi ki, informasiya cəmiyyəti quruculuğunun ikinci vacib şərti bütün insanların öz biliklərini paylaşmaq istəyində olmasıdır. N.Moiseyev "Kollektiv beyin" konsepsiyasını irəli sürmüşdür. O, "kollektiv beyin" dedikdə, insanları informasiya əlaqələri ilə birləşdirən sistemi başa düşürdü. Onun baxışlarına görə, kollektiv beyin tək informasiyanı toplamaq və ötürmək yox, eyni zamanda, analiz və nəticə çıxartmaq imkanlarına malik olan, fərdi intellektləri xüsusi bir qaydada birləşdirən məxsusi informasiya sistemidir. N.Moiseyev hesab edirdi ki, kollektiv beyin bu kimi funksiyaları yerinə yetirmək imkanlarına malik olduqda bəşəriyyət informasiya cəmiyyətinə qədəm qoyacaq.

İngilis sosioloqu Entoni Giddens (1938) "informasiya cəmiyyəti" konsepsiyasını qəbul etmir. Hesab edir ki, cəmiyyət müasir dövrdə yox, elə əvvəlcədən informasiyalı olub. Onun fikrincə, müasir dövrdə informasiyanın dəyərinin artması yeni cəmiyyətin meydana gəlməsini söyləməyə əsas vermir. E.Giddensin nəzəriyyəsinə əsasən, insanlar KİV-dən və təhsil müəssisələrindən əldə etdikləri mücərrəd biliklər əsasında öz həyatlarının maddi və sosial şəraitini təmin edirlər. İstənilən informasiyanın əlyetərliliyi şəraitində insanlar həyat tərzini, davranış

modelini seçirlər. İnkişaf etmiş cəmiyyətdə isə seçim imkanları ərazi, ənənəvi və digər amillərdən asılı deyil [1].

Postmodernizmin görkəmli nümayəndəsi, amerikalı filosof Mark Poster (1941) informasiya cəmiyyətində İnternetin roluna xüsusi əhəmiyyət verir [1]. O, hesab edir ki, İnternetin təsiri ilə baş verən qloballaşma prosesi milli dövlətləri dağıdır, İnternet insana vətəndaşlıqdan daha böyük azadlıqlar verir, İnternet vətəndaşı milli dövlətin zülmündən qurtararaq azad insana çevirir. M.Posterin bu baxışları dövlət maraqları baxımından təhlükəli hesab edilir. Çünki onun bu fikirlərində vətəndaş itaətsizliyinə çağırışlar yer alır.

İtaliyalı alim Canni Vattimo (1936) informasiya cəmiyyətini kulturoloji aspektdən tədqiq edir [21]. O, KİV-in sayının artması və əhatə dairəsinin genişlənməsini müasir cəmiyyətdə mühüm amil kimi qiymətləndirir. Hesab edir ki, efir və kabel televiziyalarının sayının sürətlə artması insanların yeni dövrün həqiqətlərinə və reallıqlarına inamını sarsıdır, KİV cəmiyyətə alternativ reallıqlar gətirir, mövcud reallıqları artırır, insanlar müxtəlif mədəniyyətlərin əhatəsində yaşamağa məcbur olurlar.

Alman alimi Yurgen Habermas (1929) informasiyanın idarə olunması və manipulyativ texnologiyalar sahəsində araşdırmalar aparır [22]. O, "İctimai sfera (informasiya sferası)" konsepsiyasını irəli sürmüşdür. Müəllif cəmiyyətdə informasiyanın əhəmiyyətinin artması ilə razılaşsa da, informasiya cəmiyyətinin yaranması ideyasını qəbul etmir.Y.Habermas ictimai informasiya sferasında böhranın aşağıdakı əlamətlərini göstərir:

- informasiya əmtəəyə çevrilir;
- informasiya zibili çoxalır;
- ictimai institutlar (kitabxana, muzey, qalereya və s.) kommersiyalaşır;
- siyasətdə və reklamda müzakirəyə yox, inandırmaya əsaslanma müşahidə edilir.

İnformasiya cəmiyyətinin əsas xüsusiyyətləri kanadalı alim Don Tapskottun (1947) "Elektron-rəqəmsal cəmiyyət" adlı əsərində daha geniş şərh olunmuşdur [23]:

*Biliklərə yönəlmə*. İntellektual əmək madd dəyərlərin yaradılmasının, gəlirlərin əldə edilməsinin əsasına çevrilir. Bilik məhsulun tərkib hissəsinə çevrilir. Biliklərə yönələn texniki vasitələr yayılmağa başlayır. İnformasiya-idarəetmə sistemi biliklər sisteminə transformasiya olunur.

*Obyektlərin rəqəmsal təqdimetmə forması.* Sənədlər elektron-rəqəmsal formaya keçir. İnsanlar arasında ünsiyyət vahidlər və sıfırlar formasını alır. Analoq texnikasından elektron-rəqəmsal texnikaya keçid baş verir (rabitə, faktların qeydə alınması sistemləri, nüsxələmə).

*Virtual xüsusiyyət*. Fiziki predmetlər, təşkilatlar virtuallaşır. Virtual mağazalar, anbarlar, iş yerləri, briqadalar yaranır. Verilənlərin virtuallaşması baş verir, "virtual reallıq sistemləri" formalaşır.

*Molekulyar struktur*. İnzibati-komanda iyerarxiyasının sonu çatır. Ayrı-ayrı işçilər və briqadalar fəaliyyət sərbəstliyi və dəyər yaratmaq imkanı qazanır. Çoxfunksiyalı və dəfələrlə istifadəni nəzərdə tutan komponentlər yaranır.

*İnteqrasiya. Şəbəkələrarası qarşılıqlı əlaqə*. Yeni tip müəssisə - şəbəkə elementidir. Vahid xidmət və istehsal şəbəkəsini təşkil edən müstəqil modul təşkilatları meydana gəlir. Maddi dəyərlərin yaradılması, ticarət, ictimai həyat ümumi istifadədə olan qlobal infrastruktura əsaslanır.

*Vasitəçilərin aradan qalxması.* Agentlərin, maklerlərin, topdansatış mərkəzlərinin təsərrüfat fəaliyyətindən kənarlaşdırılması nəticəsində istehsalçı ilə istehlakçı arasında birbaşa münasibətlər yaranır.

*Konvergensiya.* İqtisadiyyatın əsas sahələrinin, təşkilati strukturların konvergensiyası baş verir.

*İnnovativ mühit.* Yenilikçilik iqtisadi fəaliyyətin və müvəffəqiyyətin hərəkətverici qüvvəsinə çevrilir. Dəyərlərin əsas mənbəyi kimi ənənəvi uğur amilləri olan xammala çıxış, məhsuldarlıq, miqyas, işçi qüvvəsinin dəyəri deyil, insan təxəyyülü çıxış edir.

*“İstehsalçı-istehlakçı” münasibətlərinin transformasiyası.* İstehsalçı ilə istehlakçı arasındakı sərhədlər silinir. İstehlakçının bilikləri, informasiyası məhsulun yaradılmasında, o cümlədən informasiya sistemlərinin, proqram məhsullarının işlənməsində istifadə edilir. İstehlakçı onun istəyinə uyğun olan məhsulun yaradılmasını izləyə, ona düzəliş edə bilər.

*Dinamizm.* Yeni cəmiyyət real zaman rejimində fəaliyyət göstərir. Ticarət elektron formaya keçir, kommunikasiya ani olaraq həyata keçirilir, birbaşa nəzarət və idarəetmə prosesin bütün zəruri parametrləri ilə həqiqi mənzərəsinin əldə edilməsini təmin edir.

*Qlobal miqyas.* Biliklər sərhədlərə sığmır. İqtisadiyyat qloballaşır. Qarşılıqlı fəaliyyətin, əməkdaşlığın təşkili zaman və məkanla məhdudlaşmır. İşi istənilən yerdə, o cümlədən evdə yerinə yetirmək mümkün olur. Ölkələrin qarşılıqlı asılılığı artır.

*Ziddiyyətlərin mövcudluğu.* Çalışan və bilikləri lazım olmayan, işdən azad olunan işçilər, biliklillər və biliksizlər, informasiya magistrallarına çıxışı olanlar və olmayanlar arasında kütləvi sosial qarşıdurma yaranır.

**İnformasiya cəmiyyətinin multidistiplinar problemləri ilə məşğul olan beynəlxalq təşkilatlar**

İKT-nin sürətli inkişafı və insan fəaliyyətinin bütün sahələrinə nüfuz etməsi nəticəsində sivilizasiya tarixində baş verən ən radikal dəyişikliklərin dərindən dərk edilməsi və yaranan yeni situasiyada gələcəyə yönələn düzgün qərarların verilməsi zərurəti bu sahədə bir sıra mötəbər beynəlxalq və regional təşkilatların yaradılmasına səbəb oldu. Həmin təşkilatların informasiya cəmiyyətinin problemlərinin həllinə dair yanaşmalarında da multidstiplinarlıq (kompleks baxış) özünü göstərir.

2003 (Cenevrədə) və 2005-ci (Tunisdə) illərdə ikimərhələli İnformasiya Cəmiyyəti üzrə Ümumdünya Sammitinin (*World Summit on the Information Society, WSIS*) keçirilməsi ideyasının irəli sürülməsinin səbəbi də məhz bu göstərilən zərurət idi. [24, 25].

Cenevrə Sammitində qəbul edilmiş “Prinsiplər Bəyannaməsi” informasiya cəmiyyətinə dair müxtəlif konseptual təsəvvürləri və müxtəlif ölkələrin siyasi səylərinin ümumi istiqamətini müəyyənləşdirir. Sənəddə həmçinin informasiya cəmiyyəti haqqında fəlsəfi, sosial, siyasi, kulturoloji və texnoloji təsəvvürlərin məcmusunu əks etdirir.

Tunis Sammitində qəbul edilmiş “Tunis Öhdəliyi”ndə isə informasiya cəmiyyəti quruculuğunun insanların maraqlarına, BMT Nizamnaməsinin prinsiplərinə, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə əsasən həyata keçirilməsi bəyan edilir, söz və informasiya azadlığının, ideya və biliklərin informasiya cəmiyyəti üçün mühüm əhəmiyyət daşıdığı təsdiq olunur. Həmçinin müəssisələrdə İKT-nin tətbiqinin iqtisadi inkişaf üçün əsas rol oynadığı qeyd edilir, İKT-nin tətbiqi nəticəsində yaranan təhlükələrə qarşı effektli mübarizə aparmağın zəruriliyi vurğulanır. Eləcə də, informasiya cəmiyyətinin inkişaf səviyyəsini öyrənmək, rəqəmsal fərqliliyi aradan qaldırmaq üçün müvafiq monitorinq və qiymətləndirmənin həyata keçirilməsinə dair öhdəlik götürülürdü.

“İnformasiya Cəmiyyəti üçün Tunis Proqramında” rəqəmsal fərqliliyin aradan qaldırılması üçün maliyyə mexanizmlərini müəyyənləşdirmək, İnternetin tənzimlənməsi məsələlərinə diqqəti artırmaq kimi məsələlər öz əksini tapmışdı.

2014-cü ildə Cenevrədə 2003-2005-ci illərdə keçirilmiş ikimərhələli İnformasiya Cəmiyyəti məsələləri üzrə Ümumdünya Sammitinin qərarlarının yerinə yetirilməsi üzrə fəaliyyətin analizi üçün “*WSIS+10”* Sammiti keçirildi [26]. Sammitdə “*WSIS+10”*-un 2015-ci ildən sonrakı dövr üçün fəaliyyət konsepsiyası təsdiq olundu. Konsepsiyada iştirakçı dövlətlərə aşağıdakı istiqamətlər üzrə fəaliyyətin gücləndirilməsi tövsiyə olunur:

- İKT-nin inkişaf məqsədi ilə tətbiqi üçün dövlət hakimiyyəti orqanlarının və bütün maraqlı tərəflərin rolu;
- informasiya və kommunikasiya infrastrukturu;
- informasiya və biliklərin əlyetərliliyi;
- potensialın yaradılması;

–İKT-dən istifadə zamanı etimad və təhlükəsizliyin möhkəmləndirilməsi;
–əlverişli mühit;
–İKT tətbiqləri: həyatın bütün aspektləri üzrə üstünlüklər (elektron dövlət, elektron biznes; elektron təhsil, elektron səhiyyə, elektron məşğulluq, elektron ekologiya, elektron kənd təsərrüfatı, elektron elm);
–mədəni müxtəliflik və mədəni özünəməxsusluq, dil müxtəlifliyi və yerli kontent;
–KİV;
–informasiya cəmiyyətinin etik aspektləri;
–beynəlxalq və regional əməkdaşlıq.

BMT-nin İnkişaf Proqramı (*United Nations Development Programme, UNDP*) inkişaf etməkdə olan ölkələrdə İKT-nin inkişafı üçün əlverişli şəraitin yaradılması istiqamətində fəaliyyət göstərir [27]. Bu qurum xüsusi fond vasitəsi ilə İKT-nin inkişafı üzrə yerli, regional və beynəlxalq proqramları maliyyələşdirir; İKT sahəsində fəaliyyət göstərən təşkilatların beynəlxalq hüquqi müdafiəsi ilə məşğul olur; İKT sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsinə səy göstərir; İKT üzrə proqramların həyata keçirilməsi üçün strategiyalar, tövsiyələr hazırlayır.

BMT-nin elm, təhsil və mədəniyyət məsələləri üzrə ixtisaslaşdırılmış qurumu olan *UNESCO* informasiya cəmiyyətinin inkişaf problemləri üzrə öz tövsiyələri ilə çıxış edir [25, 28]. Bu qurum informasiya cəmiyyəti deyil, biliklər cəmiyyəti konsepsiyası ilə çıxış edir. *UNESCO* hesab edir ki, ədalətli informasiya cəmiyyəti qurmaq üçün, ilk növbədə, aşağıdakı problemləri tədqiq etmək və onların həllinə səy göstərmək lazımdır:

1. İKT və gender problemləri;
2. Mədəniyyət və dil müxtəlifliyi;
3. Mətbuat və ifadə azadlığı;
4. İKT və məhdud imkanlı şəxslərin problemləri;
5. İnformasiya etikası və bilik və informasiyanın hamı üçün əlyetərliliyi problemləri.

BMT-nin digər ixtisaslaşdırılmış qurumu – Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ) isə informasiya cəmiyyəti infrastrukturunun formalaşdırılması ilə bağlı aşağıdakı problemlərlə məşğul olur [29]:

- İKT-yə bərabərhüquqlu çıxış imkanı;
- sosial-iqtisadi inkişaf məsələlərinin həlli üçün genişzolaqlı İnternet şəbəkəsinin yaradılması;
- iqlim dəyişikliyinin nəticələrini aradan qaldırmaq üçün İKT-dən istifadə;
- kibercinayətkarlıq və spamların yayılması problemləri də daxil olmaqla, kibərməkanda təhlükəsizliyin təmin edilməsi;
- İKT-dən istifadə ilə bağlı etimadın təmin edilməsi;
- informasiya bərabərsizliyinin aradan qaldırılması;
- həyat təhlükəsizliyinin təmin edilməsi üçün İKT-dən istifadə;
- yeni nəsil şəbəkələrinin yaradılması.

BTİ-nin tədqiqat işləri üç sektorun fəaliyyət çərçivəsində həyata keçirilir: standartlaşdırma sektoru, telekommunikasiya sektoru və inkişaf sektoru. Hər bir sektor müvafiq problem üzrə spesifik məsələlərin öyrənilməsi ilə məşğul olan bir neçə tədqiqat qrupuna malikdir. Bütövlükdə, BTİ-nin dəstəyi ilə aparılan tədqiqatlar, əsasən, tətbiqi xarakter daşıyır və başlıca olaraq, infrastrukturun inkişafı məsələlərinə yönəlib.

BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı (*United Nations Conference on Trade and Development, UNCTAD*) öz mandatı çərçivəsində İKT-dən istifadənin müxtəlif aspektləri üzrə silsilə məqalələr dərc edir [30].

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (*Organisation for Economic Cooperation and Development, OECD*) öz fəaliyyət istiqamətləri çərçivəsində inkişaf məqsədi ilə İKT-dən istifadə problemləri ilə məşğul olur [31]. Son vaxtlar bu təşkilat tərəfindən informasiya təhlükəsizliyi

(şəxsi həyatın toxunulmazlığı, rəqəmsal identifikasiya problemləri, spamın yayılması); innovasiyaların stimullaşdırılması; informasiya cəmiyyətinin infrastrukturu (kritik infrastruktur, genişzolaqlı texnologiyalar, yeni nəsil texnologiyaları); "təmiz" texnologiyalar və "ağıllı" proqram təminatı; rəqəmsal kontent (o cümlədən piratçılıq problemləri); rəsmi informasiyanın əlyetərliliyinin artırılması və ondan effektiv istifadə; informasiya iqtisadiyyatı (İnternet iqtisadiyyatı, telekommunikasiya sahəsində rəqabət, istehlakçıların müdafiəsi, dəstəklənməsi və öyrədilməsi); elektron dövlət (istifadəçiyə yönəlmiş xidmətlər); elektron kommersiya; informasiya sənayesi (o cümlədən İKT sahəsində məşğulluq); kütləvi informasiya vasitələri mövzularında tədqiqatlar aparılmış və hesabatlar qəbul edilmişdir.

Ümumdünya İnformasiya Texnologiyaları və Xidmətləri Alyansı (*The World Information Technology and Services Alliance, WITSA*) İKT sahəsində 46 milli assosiasiyanı özündə birləşdirir [32]. Alyans üzvləri dünya İKT bazarının 90%-ni təşkil edirlər. Bu qurumun əsas missiyası İKT sahəsində beynəlxalq rəqabəti gücləndirmək, intellektual mülkiyyət hüquqlarını qorumaq, informasiya təhlükəsizliyini təmin etmək məqsədi ilə ölkələrin səylərini birləşdirmək, ölkələr arasında İKT üzrə təhsil və ixtisas səviyyəsində fərqləri aradan qaldırmaq, İnternetin və elektron kommersiyanın davamlı inkişafını təmin etməkdən ibarətdir.

2010-cu ildə Avropa Komissiyası tərəfindən "Avropa üçün rəqəmsal gündəlik" ("Digital diary for Europe") adlı sənəd qəbul edilmişdir [33]. Bu sənəddə tədqiqatlara və innovasiyalara həsr olunmuş xüsusi bölmə vardır. İKT-nin ümumavropa bazarına əmtəə və xidmətlər qismində innovativ təsirinin gücləndirilməsi üçün Avropa Komissiyası 2020-ci ilədək müvafiq tədqiqatların və innovasiyaların inkişaf strategiyasını hazırlamışdır. Həmin strategiyanın məqsəd və vəzifələri həyat səviyyəsinin yüksəldilməsinə və sosial ehtiyacların ödənilməsinə yönəlib. Strategiyanın əsas müddəaları normativ-hüquqi (sertifikatlaşdırma, standartlaşdırma və s.) və təşkilati (texnoloji sahədə birgə "yol xəritələri" hazırlamaq üçün dövlət-özəl sektor tərəfdaşlığı, biliklərin transferinin təşkili, o cümlədən büdcə vəsaitləri hesabına yaradılan elmi informasiya və nəşrlərə açıq girişin təmin olunması və s.) məsələlərə aiddir.

**İnformasiya cəmiyyətinin multidistiplinar problemləri ilə məşğul olan nüfuzlu elmi tədqiqat mərkəzləri**

İnformasiya cəmiyyətinin multidistiplinar elmi problemləri hazırda dünya elminin prioritet sahələrindən biridir. Dünyanın bir çox ölkələrində bu istiqamətdə tədqiqat aparmaq üçün ayrıca elmi mərkəzlər fəaliyyət göstərir. Həmin mərkəzlərin bəziləri beynəlxalq və ya regional statusa malikdir. Yəni bu mərkəzlərdə müxtəlif ölkələri əhatə edən elmi layihələr həyata keçirilir, tədqiqatlara ayrı-ayrı ölkələrin alim və mütəxəssisləri cəlb edilir.

Belə elmi mərkəzlərdən biri olan İnformasiya cəmiyyəti sahəsində tədqiqatlar üzrə Avropa Şəbəkəsinin (*European Network for Information Society Research, ENIR*) əməkdaşları mühüm işlər görürlər [34]. Bu Şəbəkə Avropa ölkələrindən, eləcə də, Braziliya, Çin, Meksika, ABŞ, Tunis, İsveçrə və Yaponiyadan olan 100-dən çox təşkilatı özündə birləşdirir. Şəbəkənin fəaliyyətinin nəticələrinin əsas istifadəçiləri Avropa cəmiyyətləri Komissiyası, milli və regional idarəetmə orqanları, müxtəlif biznes assosiasiyalarıdır. Tədqiqat aparılan əsas mövzular arasında sosial əhəmiyyət daşıyan sahələrdə - səhiyyədə, biznesdə, dövlət idarəçiliyində, məşğulluğun, vətəndaşların ictimai həyatda fəal iştirakının təmin olunmasında, əlillərə və ahıllara xidmət sahəsində, təhsildə İKT-nin tətbiqi məsələləri xüsusi yer tutur. İştirakçıların tədqiqatları həmçinin indikatorların işlənməsi, bazarın öyrənilməsi, onlayın dövlət xidmətlərinin göstərilməsində vətəndaşlara yönəlmə, yuxarı yaşlı insanlar üçün məşğulluq modeli, İKT-nin müxtəlif tətbiq sahələrinə təsirinin, strateji və proqram sənədlərinin qiymətləndirilməsi, qabaqcıl təcrübənin axtarılması və analizi kimi sahələri əhatə edir.

Elm və Texnologiya sahəsində Avropa Əməkdaşlıq Şəbəkəsi (*European Cooperation in Science and Technology,COST*) də İKT-nin inkişafı və tətbiqi sahəsində fəal tədqiqatlar aparır [35]. Bu qurum dövlətlərarası struktur kimi bir sıra Avropa ölkələrində dövlət tərəfindən

maliyyələşdirilən müvafiq işləri koordinasiya edir. Həmçinin Avropanın müvafiq milli elmi tədqiqat institutları, universitetləri və biznes qurumlarının beynəlxalq əməkdaşlığını təmin edir. *COST*-un əsas elmi tədqiqat istiqamətləri aşağıdakılardır:

- biotibb və molekulyar biologiya;
- ərzaq və kənd təsərrüfatı;
- meşə təsərrüfatı (məhsul və xidmətlər);
- materialşünaslıq, fizika və nanotexnologiyalar;
- kimya, malekulyar tədqiqat və texnologiyalar;
- yer və ətraf mühitin idarə edilməsi elmləri;
- informasiya-kommunikasiya texnologiyaları, nəqliyyat və şəhərlərin inkişafı;
- vətəndaşlar, cəmiyyət, mədəniyyət və sağlamlıq.

Tədqiqatların Koordinasiyası üzrə Avropa Şəbəkəsi (*European Research Coordination Agency, EUREKA*) hazırda 39 ölkəni əhatə edir [36]. *EUREKA*-nın yaradılmasında məqsəd Avropanın elmi-texniki sahədə ABŞ və Yaponiyadan geriliyini aradan qaldırmaqdır. Bu şəbəkə kiçik, orta və iri biznes müəssisələrinə, universitetlərə və elmi tədqiqat institutlarına müvafiq dəstək göstərməklə beynəlxalq bazaryönümlü tədqiqatların və innovasiyaların inkişafına töhfə verir. Şəbəkə iştirakçıları uzunmüddətli əsaslarla və "dövlət-biznes tərəfdaşlığı" prinsipləri üzrə işləməklə klasterlərdə birləşirlər. *EUREKA* şəbəkəsi vasitəsi ilə bazara Avropanın iqtisadi cəhətdən güclənməsinə və sosial inkişafına təkan verən yeni məhsul və xidmətlər çıxarılır. Müvafiq tədqiqat layihələrinin nəticələri *GSM* texnologiyalarının, mobil rabitənin, naviqasiya sistemlərinin, mobil və elektron kommersiyanı dəstəkləyən smart-kartların, kino sənayesinin proqram təminatı, ətraf mühitin çirklənməsinin monitorinqi üçün xüsusi qurğu və texnologiyaların yaradılmasında istifadə edilmişdir.

Avropada həmçinin informasiya cəmiyyətində identiklik probleminin tədqiqi sahəsində ixtisaslaşan akademik müəssisə və şirkətlərin şəbəkəsi – İnformasiya Cəmiyyətində İdentikliyin Gələcəyi (*Future of Identity in the Information Society, FIDIS*) adlı tədqiqat qurumu fəaliyyət göstərir [37]. Bu şəbəkə şəxsiyyətin müxtəlif identifikasiya üsulları, anonimlik və psevdonimlik problemləri, çoxsaylı identiklik və onun tətbiqinin məqsədləri, profilləşdirmə, yüksəktexnoloji identifikatorlar, identifikatorların uyğunluğu, şəxsi həyatın toxunulmazlığı və onun pozulmasının fəsadları və s. daxil olmaqla, fərdi məlumatların elektron formada təqdim edilməsi problemlərini öyrənir.

Dublin Universitet Kollecinin İnformasiya və kitabxana tədqiqatları məktəbi nəzdində informasiya cəmiyyəti problemləri üzrə tədqiqat qrupunun (*Information Society Research Group, School of Information & Library Studies, University College Dublin*) fəaliyyəti də çox məhsuldardır [38]. Tədqiqat qrupunun maraqlarına informasiya siyasəti, elektron idarəetmə, texnologiyaların, o cümlədən İnternetin ictimai münasibətlərə və mədəniyyət modellərinə təsiri, informasiya cəmiyyətinin sosial kapitalı, informasiya və kommunikasiyanın fəlsəfi aspektləri, təşkilatların və informasiya sistemlərinin fəaliyyətinin etnoqrafik aspektləri, cəmiyyətlərin informasiya tələbatları kimi sahələr daxildir.

ABŞ-ın Yel Universitetinin hüquq məktəbi də informasiya cəmiyyəti problemlərinin öyrənilməsi ilə məşğul olur. Bu məktəbin müvafiq tədqiqat layihəsi belə adllanır: "İnformasiya cəmiyyəti: memlər (mem - mədəni informasiya vahididir), genlər və bitlər" ("*The Information Society Project: Memes, Genes and Bits at Yale Law School*") [39]. Həmin layihə çərçivəsində biliklərin əldə edilməsi, onlayn vətəndaş azadlıqları, elektron təhsil, intellektual mülkiyyət və innovasiyalar sahəsində islahatlar və s. istiqamətlər üzrə tədqiqatlara dəstək verilir, dərslər keçirilir, ideyalar formalaşdırılır və yayılır.

Berlin Universitetinin nəzdində yaradılan A.Humbolt adına İnternet və Cəmiyyət İnstitutu (*The Alexander von Humboldt Institute for Internet and Society, HIIG*) İnternet və cəmiyyət arasındakı dinamik münasibətləri tədqiq edir [40]. Məqsəd rəqəmsallaşma prosesində sosial-mədəni, hüquqi, iqtisadi və texniki normaların qarşılıqlı əlaqələrini öyrənməkdir. İnstitut milli və

beynəlxalq səviyyələrdə birgə tədqiqat layihələri həyata keçirir. *HIIG* fundamental və empirik tədqiqatlar aparmaqla informasiya cəmiyyətinin imkanları və problemləri ilə bağlı yeni ideya və təkliflər irəli sürür.

Berkman İnternet və Cəmiyyət Mərkəzi (*Berkman Center for Internet & Society, BCİS*) Harvard Universitetinin nəzdində fəaliyyət göstərən tədqiqat qurumudur [41]. Hüquq profilli mərkəzin əsas missiyası kiberməkanın xüsusiyyətlərini – inkişaf tendensiyalarını, dinamikasını, norma və standartları ilə bağlı problemləri öyrənməkdir. O cümlədən burada şəxsi həyatın toxunulmazlığı, intellektual mülkiyyətin qorunması, kontentin və elektron kommersiyanın idarə edilməsi məsələləri araşdırılır. Mərkəzdə "Rəqəmsal media hüququ", "İnternet və demokratiya" kimi tədqiqat layihələri həyata keçirilmişdir. Mərkəzin İnternet portalında müəllim və tələbələr, sahibkarlar, hüquqşünaslar, proqramçılar üçün mühazirələri dinləmək və sərbəst müzakirə aparmaq imkanları yaradılmışdır. *BCİS* həmçinin elmi konfranslara və digər toplantılara sponsorluq edir.

Kanada İnternet Siyasəti və İctimai Maraqlar Klinikası (*Canadian Internet Policy and Public Interest Clinic, CIPPIC*) Ottava Universitetinin hüquq klinikası kimi fəaliyyət göstərir [42]. Bu tədqiqat mərkəzinin məqsədi ölkədə texnologiyalarla bağlı ədalətli və tarazlaşdırılmış siyasətin hazırlanması prosesinə elmi dəstək verməkdir. Başqa sözlə, bu mərkəz ölkədə texnologiyalarla hüquq sisteminin qovşağında yaranan müxtəlif problemlərlə bağlı cəmiyyətin maraqlarını təmsil etmək missiyasını daşıyır. *CIPPIC* müntəzəm olaraq Kanadanın parlament komitələrində, həmçinin müxtəlif məhkəmə orqanlarında ekspertiza qurumu kimi təmsil olunur. Bundan başqa, bu qurum İnternet İdarəçiliyi Forumunun tədbirlərində fəal iştirak edir. Bu tədqiqat mərkəzi fiziki və hüquqi şəxslərə konsultasiya xidməti göstərir, müxtəlif hüquqi məsələlərlə bağlı ictimaiyyət arasında maarifləndirmə tədbirləri həyata keçirir, eləcə də, tədris fəaliyyəti ilə məşğul olur.

Hindistanda fəaliyyət göstərən İnternet və Cəmiyyət Mərkəzi (*The Centre for Internet and Society, CIS*) İnternet və digər rəqəmsal texnologiyalarla bağlı multidistiplinar tədqiqatlar aparan qeyri-kommersiya təşkilatıdır [43]. Mərkəzin fəaliyyət istiqamətləri vətəndaşlar üçün rəqəmsal biliklərin əlyetərliliyi, intellektual mülkiyyət hüquqlarının qorunması, İnternetin tənzimlənməsi, telekommunikasiya islahatları, rəqəmsal konfidensiallıq və kibertəhlükəsizlik kimi sahələri əhatə edir. *CIS* həmçinin İnternet və rəqəmsal media texnologiyaları vasitəsi ilə cəmiyyətdə baş verən sosial və mədəni proseslərin, transformasiyaların tədqiqinə xüsusi diqqət yetirir.

Stenford Universitetinin hüquq fakültəsində təşkil edilən İnternet və Cəmiyyət Mərkəzi (*Center for Internet and Society (CIS) at Stanford Law School*) alimləri, qanunvericiləri, tələbələri, proqramçıları, təhlükəsizlik üzrə mütəxəssisləri özündə birləşdirir [44]. Mərkəzdə texnologiyaların hüquqi aspektləri ilə bağlı, o cümlədən söz azadlığının təmin edilməsi, şəxsi həyatın toxunulmazlığı, innovasiyaların tətbiqi sahəsində araşdırmalar aparılır. Burada hüquq fakültəsinin tələbələri və geniş ictimaiyyət hüquq, texnologiyaların və ictimai maraqların qovşağında meydana çıxan siyasi məsələlərin analizi, eləcə də müvafiq tədris materialları ilə təmin edilir. Bu mərkəz habelə bir sıra ictimai tədbirləri, o cümlədən elmi konfransları, seminarları maliyyələşdirir.

Nexa (latın dilində "əlaqəli əşyalar" mənasını verir) İnternet və Cəmiyyət Mərkəzi (*NEXA Center for Internet and Society*) Turin Politexnik Universitetinin (İtaliya) idarəetmə və hesablama texnikası kafedrasında yaradılıb [45]. Elmi tədqiqat müəssisəsi kimi fəaliyyət göstərən mərkəzdə informasiya cəmiyyəti və İnternet multidistiplinar yanaşma əsasında – texnoloji, hüquqi və iqtisadi aspektlərdə tədqiq edilir. Bu elmi tədqiqat mərkəzi Avropa Komissiyası, milli və yerli hakimiyyət orqanları, biznes qurumları və digər təsisatlarla birgə fəaliyyət göstərir. Mərkəzin əsas məqsədi İnterneti xarakterizə edən əsas amilləri, onların dinamikasını və cəmiyyətə təsirini öyrənməkdir.

Oksford Universitetində İnternetin sosial nəticələrini araşdırmaq məqsədi ilə Oksford İnternet İnstitutu (*Oxford Internet Institute, OII*) təsis olunub [46]. *OII* ən müxtəlif elm sahələrini, o cümlədən politologiya, sosiologiya, coğrafiya, iqtisadiyyat, fizika və fəlsəfəni əhatə edir. Bu institutda İnternet mühitini tədqiq etmək üçün geniş spektrli metodlardan və informasiya

mənbələrindən istifadə olunur. *OII*-nin nəşr etdirdiyi kitab və jurnallarda şəxsi həyatın toxunulmazlığı və təhlükəsizliyi, elektron dövlət və elektron demokratiya, virtual iqtisadiyyat, informasiya etikası, “ağıllı şəhər”, onlayn oyunlar, böyük verilənlər, İnternet-coğrafiya, rəqəmsal məhdudiyyətlər, rəqəmsal humanitar elmlər, Vikipediya kimi mövzular üzrə tədqiqatların nəticələri təqdim olunur.

Tayvanda informasiya cəmiyyətinin formalaşmasına, informasiya texnologiyalarının innovativ tətbiqinə, biliklər iqtisadiyyatının inkişafına elmi dəstək vermək məqsədi ilə İnformasiya Sənayesi İnstitutu (*Taiwan Institute for Information Industry, TIII*) yaradılıb [47]. İnstitut həmçinin ölkənin iqtisadi inkişafı üçün İqtisadiyyat nazirliyi və İKT üzrə aparıcı müəssisələr arasında əlaqələndirmə və elmi dəstək funksiyasını yerinə yetirir. Tayvanın İKT sənayesi üzrə qlobal rəqabət qabiliyyətinə nail olmasında bu institutun fəaliyyəti çox yüksək qiymətləndirilir. *TIII*-nin tərkibində “ağıllı” şəbəkə sistemləri, innovativ tətbiqlər və servislər, data analitika, kibertəhlükəsizlik, elektron təhsil üzrə departamentlər fəaliyyət göstərir.

ABŞ-da yaradılan Berkli İnformasiya cəmiyyəti mərkəzi (*Information Society Center in Berkeley, ISCB*) son informasiya inqilabının sosial təsirlərinin tədqiqi ilə məşğul olur [48]. Mərkəzin tədqiqat şurasının rəhbəri informasiya cəmiyyətinin görkəmli tədqiqatçısı M.Kastelsdir. Tədqiqat mərkəzinin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

- qlobal informasiya cəmiyyətinin problemləri və onların həlli modelləri;
- sosial sferada İKT-nin tətbiqi;
- bərabər sosial imkanların artırılması.

Çikaqoda fəaliyyət göstərən İnformasiya, Cəmiyyət və Siyasət Mərkəzində (*Center for Information, Society and Policy, CISP*) informasiya texnologiyalarının inkişafı ilə əlaqədar aktuallaşan informasiyanın təhlükəsizliyi və konfidensiallığı problemləri ilə bağlı multidistiplinar tədqiqatlar aparılır [49]. Bu mərkəzdə kompüter elmləri üzrə alimlərin, psixoloqların, hüquqşünasların, biznes ekspertlərinin və s. mütəxəssislərin təcrübəsi birləşdirilir.

Cənubi Koreyanın İnformasiya Cəmiyyətinin İnkişafı İnstitutu (*Korea Information Society Development Institute, KISDI*) İKT-nin iqtisadiyyata tətbiqi məsələləri ilə məşğul olur [50]. *KISDI* Cənubi Koreyanın tanınmış ekspertlərindən ibarət aparıcı beyin mərkəzi kimi ölkə həyatında müsbət dəyişikliklərin, imkanların, nailiyyətlərin əldə edilməsi üçün səy göstərir. Bu institut Cənubi Koreyanın İKT sənayesi sahəsində dünyanın aparıcı ölkələrinə çevrilməsində mühüm rola malikdir. Hazırda institut öz tədqiqat səylərini ölkədə informasiya cəmiyyətinin, informasiyalaşdırmanın, kreativ iqtisadiyyatın, telekommunikasiya sektorunun, elektron medianın gələcək inkişafına yönəldib.

## İnformasiya cəmiyyətinin multidistiplinar problemlərinə həsr olunan nüfuzlu elmi jurnallar

Hazırda dünyanın müxtəlif ölkələrində informasiya cəmiyyətinin multidistiplinar elmi problemlərinə həsr olunmuş bır sıra nüfuzlu jurnallar dərc olunur. Həmin jurnallarda informasiya cəmiyyətinin müxtəlif aspektləri ilə bağlı aparılan nəzəri və empirik tədqiqatların nəticələri dərc olunur.

İlk belə jurnal 1981-ci ildə ABŞ-da təsis edilmişdir. *“The Information Society”* (“İnformasiya cəmiyyəti”) adlanan bu jurnalda İKT-nin cəmiyyət həyatına təsirinin dərk edilməsi və analizi, müvafiq sahə üzrə konseptual və strateji sənədlərin, metodoloji yanaşmaların, müxtəlif tendensiyaların (sosial transformasiyaların, mədəni xüsusiyyətlərin dəyişməsinin və s.) müzakirəsi ilə bağlı məqalələr çap olunur [51].

*Springer*-in nəşrlərindən olan “*Universal Access in the Information Society*” (“İnformasiya cəmiyyətində universal giriş”) jurnalı informasiya cəmiyyəti texnologiyalarının layihələndirilməsi, işlənməsi, qiymətləndirilməsi, istifadəsi və təsirləri, habelə ümumi əlyetərliliyi asanlaşdıran və genişləndirən standartlaşdırma, siyasət və digər qeyri-texnoloji məsələləri ilə bağlı

elmi-tədqiqat işlərinin nəticələrini dərc edir. Jurnalda nəzəri, metodoloji və empirik tədqiqatların nəticələrinə üstünlük verilir [52].

*Springer*-də nəşr olunan digər jurnal - "*AI & SOCIETY*" ("Süni intellekt və cəmiyyət") də multidistiplinar təyinatlıdır. Jurnalda yeni texnologiyaların tətbiqinin idarəetmə, təhlükəsizlik, mədəni, sosial, iqtisadi, etik, fəlsəfi və s. problemlərinə həsr olunan tədqiqatların nəticələri dərc olunur [53].

Rusiyada nəşr olunan "*Информационное общество*" ("İnformasiya cəmiyyəti") jurnalı informasiya cəmiyyətinin inkişafının kompleks problemləri üzrə ixtisaslaşan dövri elmi nəşrdir [54]. Bu jurnalda indiyə qədər dərc edilən məqalələrin 40%-i elektron dövlət, 20%-i elektron təhsil, 8%-i elektron səhiyyə, 8%-i İnternetdən istifadə məsələlərinə həsr olunub.

Böyük Britaniyada nəşr olunan "*Journal of Law and Policy for the Information Society*" ("İnformasiya cəmiyyətində hüquq və siyasət jurnalı") adlı dövri nəşr də informasiya cəmiyyətinin multidistiplinar problemləri üzrə ixtisaslaşıb [55]. Jurnalda intellektual mülkiyyətin qorunması, elektron demokratiya, kibertəhlükəsizlik, şəxsi həyatın toxunulmazlığı kimi rubrikalar mövcuddur.

Böyük Britaniyanın "*Journal of Information, Communication and Ethics in Society*" ("Cəmiyyətdə informasiya, kommunikasiya və etika jurnalı") adlı dövri nəşri də informasiya cəmiyyətinin multidissiplinar problemləri ilə bağlı tədqiqatların nəticələrini təqdim edir [56]. Jurnalda yeni kütləvi informasiya vasitələri və informasiya-kommunikasiya texnologiyalarının planlaşdırılması, işlənməsi, tətbiqi və istifadəsi ilə bağlı sosial və etik problemlərin tədqiqi ilə bağlı məqalələrə yer verilir. Nəşrin auditoriyasını antropologiya, biznes, informatika, jurnalistika, fəlsəfə, politologiya, psixologiya və sosiologiya sahələrinin alimləri təşkil edir.

Hindistanın "*International Journal of Information Library and Society*" ("Beynəlxalq kitabxana və informasiya cəmiyyəti jurnalı") adlı elmi nəşrində informasiya cəmiyyətində, vətəndaşların informasiya hüquqlarının təmin olunmasında kitabxanaların rolu, elektron kitabxanaların aktual problemləri ilə bağlı məqalələr dərc olunur [57]. Dövri nəşrin əhatə etdiyi mövzular çox genişdir: verilənlərin mühafizəsi və müəllif hüquqları, elektron kitabxanalar, elektron sənədlərin rəsmiləşdirilməsi, elektron resurslar, yeni texnologiyalar, kitabxana və cəmiyyət, kitabxana 2.0., elmi kitabxanalar, elektron kitabxanaların idarə edilməsi və s.

**Nəticə**

Müvafiq elmi-nəzəri konsepsiya müəlliflərinin yanaşmalarında müəyyən ziddiyyətlər mövcud olsa da, həmin tədqiqatçılar bir məsələdə həmrəydirlər ki, o da informasiya cəmiyyətinin bəşəriyyətin sürətli inkişafına xidmət edən radikal keyfiyyət dəyişiklikləri mərhələsinin olmasının etirafıdır. Bütün müvafiq tədqiqatlar da məhz bu mərhələdə yaranan yeni münasibətlərin, dəyərlər sisteminin elmi cəhətdən dərk edilməsinə və problemlərin həlli yollarını axtarmağa yönəlib. Beynəlxalq təşkilatların səyləri, çağırışları da əhəmiyyəti elmi cəhətdən təsdiqlənən informasiya cəmiyyəti ideologiyasının dünya ölkələrində bərqərar olmasına təşkilati-metodoloji aspektdən dəstək verməyə xidmət edir.

İnformasiya cəmiyyətinə dair məşhur elmi-nəzəri konsepsiyaların, beynəlxalq təşkilatların çağırışlarının, nüfuzlu elmi tədqiqat mərkəzlərinin və jurnalların fəaliyyət istiqamətlərinin analizi göstərir ki, doğrudan da, bu sahənin problemlərinin həlli kompleks yanaşma, multidistiplinar elmi metodologiya tələb edir. Çünki informasiya cəmiyyəti real dünyanın virtual alternatividir. Virtuallaşma prosesi isə bir-biri ilə qarşılıqlı əlaqədə olan bütün sahələri əhatə edir.

Müvafiq analiz əsasında informasiya cəmiyyətinin formalaşmasının elmi-nəzəri problemlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

*Texnoloji:* insan fəaliyyətinin bütün sferalarında İKT-nin tətbiqi və yaratdığı yeniliklər, üstünlüklər; informasiya cəmiyyəti infrastrukturunun formalaşması (kritik infrastruktur, genişzolaqlı İnternetin inkişafı, yeni nəsil şəbəkələrinin yaradılması və s.); "smart", "yaşıl" və

digər yeni texnologiyaların, data analitikanın inkişafının stimullaşdırılması, informasiya təhlükəsizliyinin təmin edilməsi, şəxsiyyətin etibarlı identifikasiya üsullarının işlənməsi;

*Hüquqi:* İKT-nin hüquqi aspektləri; İKT sahəsində standartlaşdırma və sertifikatlaşdırma məsələləri; vətəndaşların informasiya hüquqlarının təmin edilməsi; İnternetin hüquqi tənzimlənməsi; kibercinayətkarlıqla mübarizə; intellektual mülkiyyət və istehlakçı hüquqlarının qorunması;

*İqtisadi:* ənənəvi iqtisadi münasibətlərin transformasiyası; iqtisadiyyatın qloballaşması; iqtisadiyyatda və istehsalda informasiya amilinin rolunun artması; informasiya və biliklər iqtisadiyyatının formalaşması; yeni iqtisadiyyatda innovativliyin, kreativliyin stimullaşdırılması; elektron kommersiyanın inkişafı; əməyin xarakterinin dəyişməsi, yeni peşə formalarının yaranması;

*Siyasi:* yeni cəmiyyətin idarə olunması konsepsiyaları; informasiya cəmiyyəti quruculuğu konsepsiyaları və modelləri; informasiya siyasəti; elektron dövlət konsepsiyası; informasiya cəmiyyətində dövlət-biznes-vətəndaş cəmiyyəti əməkdaşlığı; rəqəmsal demokratiya; insan hüquqlarının təmin olunmasında və siyasi proseslərdə söz azadlığının rolu; informasiya manipulyasiyası; informasiya cəmiyyəti quruculuğu sahəsində beynəlxalq əməkdaşlıq;

*Sosial*: insanın və cəmiyyətin yeni dəyərlər sisteminin formalaşması; yeni cəmiyyətin strukturu, xüsusiyyətləri, inkişaf qanunauyğunluqları və fəlsəfi dərki; həyat səviyyəsinin dəyişməsinin mühüm stimullaşdırıcısı kimi çıxış edən proseslər; virtual reallığın xüsusiyyətləri; sosial şəbəkələr və sosial media; rəqəmsal bərabərsizlik; sosial kapitalın əhəmiyyəti; informasiya cəmiyyətində mariginal qrupların maraqlarının təmin edilməsi;

*Məkan(sal):* informasiya-kommunikasiya şəbəkələrinin yayılması nəticəsində baş verən qloballaşma prosesləri, onun müsbət və mənfi tərəfləri;

*Psixoloji:* İKT-nin təsiri ilə ictimai və fərdi şüurda, hisslərdə, əhval-ruhiyyələrdə baş verən dəyişikliklər, informasiya asılılığı;

*Kulturoloji:* informasiyanın kulturoloji dəyəri; müasir mədəni sferanın informativliyinin artması; KİV-in müasir cəmiyyətdə rolunun, təsir imkanlarının genişlənməsi; informasiya mədəniyyəti; mədəni və dil müxtəlifliyinin qorunması.

**Ədəbiyyat:**


1. Webster F. Theories of the Information Society, Routledge, 2007, 312 p.
2. Манакова И.Ю. Методологические аспекты исследования постиндустриального общества // Вестник Воронежского государственного университета. Серия: Философия, 2011, № 1, с. 74-87.
3. Kumar K. From Post-Industrial to Post-Modern Society: New Theories of the Contemporary World, John Wiley & Sons, 2009, 304 p.
4. Bell D. The Coming of Post-industrial Society: A Venture in Social Forecasting, Basic Books, 1976, 507 p.
5. Белл Д. Социальные рамки информационного общества // Новая технократическая волна на Западе, М., Прогресс, 1986, с. 330-342.
6. Литвак Н.В. К вопросу о классификации концепции информационного общества // Социологические исследования, 2010, № 8 с. 3-12.
7. Винер И. Кибернетика, или управление и связь в животном и машине, М., Советское радио, 1968, 328 с.
8. Masuda Y. The Information Society as Post-industrial Society, Washington, 1981, 286 p.
9. Toffler A., Toffler H. Creating a New Civilization: The Politics of The Third Wave, Atlanta, Turner Publishing, 1995, 112 p.
10. Тоффлер Э. Шок будущего, АСТ, 2008, 558 с.
11. Тоффлер Э. Метаморфозы власти: знание, богатство и сила на пороге XXI века, АСТ, 2009, 668 с.

12. Castells M. The Rise of The Network Society: The Information Age: Economy, Society and Culture, Wiley, 2000, 624 c.
13. Clark J., Diani M. Alain Touraine, Psychology Press, 1996, 381 p.
14. Drucker P. Post-Capitalist Society, Routledge, 2012, 212 p.
15. Махлуп Ф. Производство и распространение знаний в США, М., Прогресс, 1966, 462 с.
16. Stonier T. The Wealth of Information: A Profile of the Post-industrial Economy, Thames Methuen, 1983, 224 p.
17. Gordon W. T. Marshall McLuhan - Escape Into Understanding: A Biography, Gingko Press, Incorporated, 2004, 465 p.
18. Иноземцев В.Л. За пределами экономического общества: Постиндустр. теории и постэкон. тенденции в соврем. Мире, М., Academia : Наука, 1998, 639 с.
19. Salvaggio J.L. The Information Society: Economic, Social, and Structural Issues, Routledge, 2013, 152 p.
20. Моисеев Н.Н. Судьба цивилизации. Путь разума, М. 2000, 224 с.
21. Ваттимо Дж. Прозрачное общество, М., Логос, 2002, 128 с.
22. Habermas J. The Structural Transformation of the Public Sphere: An Inquiry Into a Category of Bourgeois Society, MIT Press, 1991, 301 p.
23. Тэпскотт Д. Электронно-цифровое общество, М., Рефл-бук, 1999, 432 с.
24. http://www.publicadministration.un.org/wsis10
25. Чернов А.А. Становление глобального информационного общества: проблемы и перспективы, М., “Дашков и К”, 2003, 232 с.
26. ITU, Outcome WSIS+10, Ceneva, 2014, 50 p.
27. http://www.sdnp.undp.org/it4dev
28. http://en.unesco.org/themes/building-knowledge-societies
29. http://www.itu.int/en/Pages/default.aspx
30. http://unctad.org/en/Pages/Home.aspx
31. http://www.oecd.org
32. www.witsa.org
33. http://ec.europa.eu/index_en.htm
34. http://www.enir.org
35. http://www.cost.eu
36. http://www.eurekanetwork.org
37. http://www.fidis.net
38. http://www.ucd.ie/ics/research/informationandsociety
39. https://www.law.yale.edu
40. http://www.hiig.de/en
41. https://cyber.law.harvard.edu
42. https://cippic.ca
43. http://cis-india.org
44. http://cyberlaw.stanford.edu
45. https://nexa.polito.it/noc
46. http://www.oii.ox.ac.uk
47. http://web.iii.org.tw
48. http://www1.icsi.berkeley.edu/BCIS
49. https://www.kentlaw.iit.edu/institutes-centers/center-for-information-society-and-policy
50. http://kisdi.re.kr/kisdi/jsp/fp/eng/about/KE_31000.jsp
51. http://www.indiana.edu/~tisj/index.htm
52. http://www.springer.com/computer/hci/journal/10209
53. http://www.springer.com/computer/ai/journal/146
54. http://www.infosoc.iis.ru

55. http://www.is-journal.org
56. http://www.emeraldinsight.com/journal/jices
57. http://www.publishingindia.com/ijils

**УДК 004:330.47:330.88**

**Алгулиев Расим М.[1], Махмудов Расим Ш.[2]**
[1,2]Институт Информационных Технологий НАНА, Баку, Азербайджан
[1]secretary@iit.ab.az, [2]rasimmahmudov@gmail.com

**Мультидисциплинарные научно-теоретические проблемы формирования информационного общества**

В статье исследуются и классифицируются научно-теоретические проблемы формирования информационного общества. Анализируются различные взгляды, подходы, концепции, связанные с теорией информационного общества. Комментируются действия, призывы международных организаций, связанные с построением информационного общества. Указываются направления действий влиятельных научно-исследовательских центров и журналов, занимающихся мультидисциплинарными проблемами информационного общества.

***Ключевые слова:*** *информационное общество, постиндустриальное общество, мультидисциплинарный подход, информационная политика, информационное производство, инновационное действие, интеллектуальная собственность.*

**Rasim M. Alguliyev[1], Rasim Sh. Mahmudov[2]**
[1,2]Institute of Information Technology of ANAS, Baku, Azerbaijan
[1]secretary@iit.ab.az, [2]rasimmahmudov@gmail.com

**Multidisciplinary scientific and theoretical problems of information society**

Abstarct-The article investigates and classifies the scientific and theoretical problems of the information society. The various views, approaches, concepts related to the theory of the information society are analyzed. Activity fields, appeals of international organizations related to the Information Society are explained. The activity fields of influential research centers and journals dealing with multidisiplinary challenges of the information society is investigated.

***Keywords:*** *information society, post-industrial society, multidisciplinary approach, information policy, information production, innovative action, intellectual property.*